# Morşinin təbiəti də möcuzədir, suyu da...



Avropanın böyük dövlətlərindən olan Ukraynanın demək olar ki, bütün əraziləri ekoloji baxımdan diqqəti cəlb edir, dağlar, dərələr, yamaclar, düzlər sanki mahir rəssam fırçasından çıxmış tablonu xatırladır, nadir ağaclar, ətirsaçan gül-çiçək kolları, sakit axan nəğməli çaylar insanlarda xoş ovqat yaradır.

İlboyu dünyanın müxtəlif ölkələrindən Kiyev şəhərindən 700 kilometrə yaxın məsafədə yerləşən Morşin sanatoriyasına minlərlə xəstə gəlir, onlar təbiətin bu romantik məkanında, Karpat dağlarının ətəklərində, dahi Ukrayna şairi Taras Şevçenkonun vətənində şəfa tapır, doğma ailələrinə sağlam, yüksək əhval-ruhiyyə ilə qayıdırlar... Həmçinin ilin yay fəslində, qızıl payız günlərində Morşində insan əlindən tərpənmək mümkün deyil. Ana və uşaqlar üçün sanatoriyalarda əlverişli şərait yaradılmışdır. Müharibə və əmək veteranlarına göstərilən qayğı və diqqətə söz ola bilməz. Səhər saat 8-dən axşam saat 7-dək müalicəyə gələn insanlar vannalar qəbul edir, masaj olunur, elektrik müalicələri qəbul edir, idmanla məşğul olur, səhər yeməyi, nahar və şam yeməyindən öncə həkimin göstərişi ilə müxtəlif mineral sular içirlər.

Morşin sanatoriyasının tarixi 1878-ci ildən başlayır. Hər il bu müalicə ocağına Ukrayna, Moldova, Belarus, İsrail, Almaniya, Azərbaycan və digər ölkələrdən minlərlə insan gəlir. Onlar təbiətin bu romantik guşəsində, sıx meşəliklər qoynunda mədə-bağırsaq, şəkər, böyrək, qaraciyər və digər xəstəliklərə görə yaxşı-yaxşı müalicə olunur, istər putyovkaların qiyməti, istərsə də digər xidmətlər hamını razı salır...



Biz Morşinin "Dnestr", "Lavanda", "Marmırovı", "Çeromoş", "Morşin", "Arkadi" və digər sanatoriyalarında olarkən burada çoxlu sayda azərbaycanlılarla rastlaşdıq. Onlar Morşində müalicənin səviyyəsindən, xüsusilə dünyada bənzəri olmayan mineral sulardan, suyun verdiyi səmərədən məmnun qaldıqlarını bildirdilər.

Morşindəki "Lavanda" sanatoriyası mərkəzdə, Taras Şevçenkonun adını daşıyan mədəniyyət evinin yaxınlığında yerləşir. "Lavanda" sanatoriyası 20 ildən çoxdur ki, fəaliyyət göstərir. Sanatoriyanın yerləşdiyi bina 7 mərtəbəlidir, ərazisi isə 3 hektardır, hər tərəf yaşıllığa, gül-çiçəyə qərq olmuşdur. Mütəmadi olaraq müalicə olunan insanların avtobuslarla yaxın və uzaq məsafələrə ekskursiyaları təşkil olunur. Bir sözlə, Morşində adam heç vaxt darıxmır, burada dincələn neçə-neçə millətlərin nümayəndələri bir-biriləri ilə sıx təmasda olur, dostlaşırlar...

"Lavanda" sanatoriyasının baş həkimi Furmanyuk Nikolay Fyodroviç söhbət əsnasında vurğuladı ki, sanatoriyada müalicə dövründə xəstələr dietik yeməklərlə təmin olunur, yaşayış otaqları müasir tələblər səviyyəsindədir, müayinə və müalicələr dəqiqliklə aparılır.

Biz "Lavanda" sanatoriyasında Azərbaycandan olan polis əməkdaşı Asəf Dəmirovla, Minsk şəhərindən Nataşa İvanovna, Kiyev şəhərindən Elburus Qarayev, Vitali Xmelnitski ilə söhbət edərkən onlar bildirdilər ki, bu şəfa ocağına 4-5 ildir ki, gəlirlər, qaraciyər, şəkər xəstəliklərindən əsər-əlamət qalmayıb...

"Morşin"in suyu da möcuzədir, təbiəti də. Karpat dağlarının atlas geyimli mənzərələri sizi gözləyir. Gəlin, gülün, həyatın gözəl anlarını yaşayın, xəstəliklərin daşını atıb, yüksək əhval-ruhiyyə ilə ailənizə qovuşun...

**Qədir ASLAN,**
**Bakı-Morşin-Bakı.**